RESPUBLİKA 28 oktyabr 2021-ci il






# Tarixə yazılan günlər

**Azərbaycan əsgəri 30 il işğal altında qalan ərazilərimizi qarış-qarış, kənd-kənd düşməndən azad edir, uğrunda canından keçdiyi Vətən torpağının mərdlik, qəhrəmanlıq salnaməsini yazırdı... Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin torpaqlarımızın işğalçılardan azad olunması ilə bağlı xalqa hər yeni qələbə müjdəli müraciəti artıq Zəfərdən soraq verirdi.**

Daha bir qələbə müjdəsi... Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi "Twitter" səhifəsində yazır: "Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qilican kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!". Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda əks-hücum əməliyyatına başlamasından artıq bir ay ötmüşdü. Dünyanın aparıcı 50 ordusu sırasında olan Azərbaycan Ordusu 30 il düşmən tapdağı altında olan torpaqlarımızda yüksək peşəkarlıq, döyüş qabiliyyəti, ən əsası isə qəlbində bitməz-tükənməz Vətən eşqi, Vətən həsrəti ilə döyüşürdü.

Artıq bir ay ərzində Füzulinin Füzuli şəhəri və 30 yaşayış məntəqəsi, Cəbrayılın Cəbrayıl şəhəri, Xudafərin və Xələfli qəsəbələri və 66 yaşayış məntəqəsi, Zəngilanın Zəngilan şəhəri, Həkəri, Mincivan, Ağbənd qəsəbələri və 40 yaşayış məntəqəsi, Qubadlının Qubadlı şəhəri və 14 yaşayış məntəqəsi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 20 yaşayış məntəqəsi, Tərtər rayonunun 3 yaşayış məntəqəsi və Kəlbəcərin Murovdağ zirvəsi işğaldan azad olunmuşdu. Döyüşlər səngimək bilmirdi...

"Biz Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində öhdəlik almalıyıq ki, qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlar. Hələlik biz bunu eşitməmişik. Ermənı rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq". Bu sözləri Prezident İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibəsi zamanı demişdi. Ali Baş Komandanın bu qətiyyəti, bu cəsarəti Şanlı Ordumuzun gücünə güc qatır, döyüş əzmini artırır, düşmənin belini sındırırdı...

Döyüş meydanında hünərli Azərbaycan əsgəri ilə üzbəüz gəlməyi bacarmayan, məğlubiyyətə uğrayan erməni isə xaincəsinə mülki əhalini, yaşayış yerlərini atəşə tutur, insanlıq əleyhinə apardıqları alçaq siyasətdən əl çəkmir, qisasını dinc əhalidən almağa çalışırdı.

2020-ci il oktyabr ayının 27-28-də düşmənin silahlı birləşmələri Azərbaycanın dinc yaşayış məntəqələrinə təcavüz etmişdi. Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "Claster" tipli 2 ədəd raket atmışdı. Nəticədə 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb, 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə ziyan dəymişdi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" hesabında paylaşım edib: "Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpaqlarımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq. Uca Tanrı Vətənimizi qorusun".

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutmuşdu. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilirdi ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edir. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb, o, itki verərək geri çəkilmişdi. Gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd "Osa" ZRK, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd 120 millimetrlik minaatan, 1 ədəd "Konkurs" tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılmışdı.

Alçaq niyyətli düşmənin bütün cəhdləri boşa çıxırdı. Vətən torpaqları uğrunda şiddətli döyüşlər gedir, düşmən müqavimət göstərsə də, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirirdi. Vətən deyib döyüşə atılan, Vətən çağırışına hay verən igid əsgərlərimiz döyüş meydanında düşmənə qan uddururdu. Əzəli və əbədi torpaqlarımız işğaldan azad olunurdu.

Böyük Zəfərə isə az qalırdı...

**"Respublika".**